*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2024, № 2* *ISSN: 2663-2926*
*Səhifə: 48-55* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2024.2.48*

## ƏDƏBİ TƏHLİL. MƏTN POETİKASI

# Poetik fikrin təkamülündə bədii obraz və simvol

**Günay Qarayeva**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail:gunaygarayeva@gmail.com

**Annotasiya.** Məqalədə ədəbiyyatşünaslıq elminin mürəkkəb nəzəri problemlərindən olan bədii obraz və simvol əlaqələri tədqiq olunur. Aparılan araşdırma zamanı simvol bədii obrazın nüvəsində, onun tərkib elementi kimi götürülür. Qeyd olunur ki, simvolun yaranmasında ilkin etap bədii obrazın mövcudluğudur. Bədii obraz simvola qədər müəyyən obyekt üzərində fokuslanır, obrazdan simvola keçiddə isə mövcud sərhədlər qırılır, təsvir əhəmiyyətini itirir, mətn boyu bütün gedişatlar mənanın, yeni ideyanın üzərinə istiqamətlənir.
Simvolun yaranmasında bədii obrazın mükəmməl təqdimi əsasdır. Simvol poetik kateqoriyaların ümumiləşmiş tipidir. Onların iştirakı olmadan simvol yarana bilməz, lakin simvol da "məcazlar ailəsini" bir araya gətirərək, onların funksiyalarını ümumiləşdirir, simvollaşan obraz müəyyən bir ideyanın gerçəkləşməsinə zəmin yaradır.
Tədqiqat zamanı A.F.Losev, S.S.Averintsev, A.Kvyatkovski, L.Timofeyev, A.Auer, P.D.Miniçkin, A.V.Karpenko, E.M.Spirova və b. nəzəri fikirlərinə əsaslanaraq bədii nümunələr əsasında bədii obraz – simvol əlaqələri, onların bir-birinə oxşar və fərqli cəhətləri araşdırılmışdır.
**Açar sözlər**: bədii obraz, simvol, poetik kateqoriya, predmet, məna, ideya

**Məqalə tarixçəsi:** göndərilib – 07.10.2024; qəbul edilib – 18.10.2024

# The artistic image and symbol in the evolution of poetic thought

**Gunay Garayeva**
Doctor of Philosophy in Philology, Associate Professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail:gunaygarayeva@gmail.com

**Abstract.** This article explores the relationship between artistic image and symbol, which is one of the complex theoretical problems in literary studies. During the research, the symbol is considered as the core of the artistic image, as a component of its structure. It is noted that the initial stage in the creation of the symbol is the existence of the artistic image. The artistic image focuses on a specific object until it transforms into a symbol, at which point the existing boundaries are broken,

the descriptive significance fades, and the narrative throughout the text shifts to the meaning, to the realization of a new idea.
The perfect presentation of the artistic image is fundamental to the creation of the symbol. The symbol is a generalized type of poetic category. Without their involvement, the symbol cannot emerge, but at the same time, the symbol unites the "family of metaphors," generalizing their functions, and the symbolized image creates the foundation for the realization of a specific idea.
Based on the theoretical views of A.F.Losev, S.S.Averintsev, A.Kvyatkovski, L.Timofeev, A.Auer, P.D.Minichkin, A.V.Karpenko, E.M.Spirova, and others, the article examines the artistic image-symbol relationship in literary examples, analyzing their similarities and differences.
**Keywords**: artistic image, symbol, poetic category, object, meaning, idea

**Article history:** received – 07.10.2024; accepted − 18.10.2024

## Giriş / *Introduction*

Ədəbiyyatşünaslıq elminin mürəkkəb problemləri içərisində xüsusi yer tutan simvol anlayışı, simvolun özünə yaxın poetik kateqoriyalarla bənzər əlamətlərinin olması bu sahədə ciddi tədqiqatların aparılmasına zəmin yaradır. Bədii obraz – simvol, simvol-metafora, simvol-alleqoriya ədəbi-nəzəri müstəvidə tez-tez müzakirə edilən problemlər olaraq qalmaqdadır. Bədii mətnin strukturunda əsas funksiya daşıyıcılarından biri olan obraz (image), türk dilində imgə kimi işlədilir. "İmaj, edebi ürünlerde, özellikle de şiirde dile getirilmek isteneni daha canlı, etkili, görülebilir və duyulabilir bir biçimde anlatmak için anlatılmak istenenle başqa şeyler arasında bağlantı kurularak zihinde canlandırılan yeni biçimlere (hayallere) verilen addır. Bu biçimler dış dünyadan alınmış ögelerle oluşturulur" [7].

## Əsas hissə / *Main part*

Simvolun xarakteristikasının, mahiyyətinin açıqlamasını verən çoxlu sayda estetika, ensiklopediya lüğətlərində simvol işarə, bədii obraz kimi götürülür, onlar arasında sərhədlərin nisbəti əksər hallarda açıqlanmır, bəzən isə qarışdırılır. S.S.Averintsev simvolun təyinatında predmetli obraz və dərin mənanı iki qütb kimi əsas məqamlardan sayaraq qeyd edir: "Hər bir simvolda obraz var və hər bir obrazda heç olmasa müəyyən dərəcədə simvol var. Obraz kateqoriyası predmet oxşarlığını güman edir, simvol kateqoriyası həminki mahiyyətin başqa tərəfini nəzərə çarpdırır. Predmet obrazı və dərin məna iki qütb kimi simvolun strukturunda çıxış edir. Simvola keçərək obraz "şəffaf" olur, məna onun içərisindən işıqlanır" [1, s.386]. V.M.Kojevnikova və P.A.Nikolayeva ədəbi estetika lüğətində S.S.Avarintsevə istinad edərək simvolun əsas xüsusiyyətlərini və təyinatını açıqlayaraq qeyd edirlər: "Simvol öz əlamətliyinin aspektində götürülmüş", "bütün orqanikliklə və obrazın tükənməz çoxmənalılığıyla bölünmüş nişandır. Predmetli obraz və dərin məna simvolun strukturunda iki qütb kimi çıxış edir, biri digəri olmadan ağlasığmazdır" [12]. Eyni mövqedən çıxış edən A.Kvyatkovski də simvola müxtəlif mənalı predmetli obraz kimi baxır [10, s.263]. Deməli, simvol bədii obrazın nüvəsində yerləşir, obraz mövcud olmadan simvolun yaranması da mümkün deyil. Bədii obraz olaraq simvolda əsas aparıcı xüsusiyyət predmetli obrazın varlığı, dərin mənalılıq və obrazın real görüntüsündən uzaqlaşan, öz nüvəsində mətndənkənar yaranan obraz arasında əlaqə və ümumiləşdirmədir. Hər bir obraz simvol ola bilməz, baxmayaraq ki, qeyd olunduğu kimi hər bir obrazda bu və ya digər dərəcədə simvol var. Obrazın simvollaşması müəyyən mərhələlərdən keçir. Obraz işləkliyi ilə metaforaya, ardınca simvola çevrilə bilər [3, s.84].

Simvol obrazdır, "mənalandırılmış obraz", "predmetli obraz" simvolun obrazın nüvəsində mövcudluğunu və yerini möhkəmləndirir, biz simvolu ondan təcrid etmək iqtidarında deyilik. Simvolun obrazın nüvəsində yerləşməsi onun masştabını genişləndirir. Simvol-obraz əlaqələri həm də digər obraz kateqoriyalarına da aiddir. Yəni həm simvol, alleqoriya, metofora – hər biri obrazın strukturuna daxildir, ondan ayrılmazdır. S.S.Avarintsev yazır: ".....simvol öz mənalandırma aspektində götürülmüş obrazdır və o, mifin bütün üzvülüyü və obrazın tükənməz çoxmənalılığı bəxş edilmiş işarədir. Hər bir simvol bir obrazdır (hər bir obraz ən azı müəyyən dərəcədə bir simvoldur), lakin obraz kateqoriyası özü ilə obyektiv eyniliyi nəzərdə tutursa, onda kateqoriya simvolu vurğunu eyni mahiyyətin digər tərəfinə, təsvirin öz hüdudlarından kənara çıxmasına, obrazla sıx birləşmiş müəyyən mənanın mövcudluğuna yönəldir, lakin onunla eyni deyil" [2, s.155]. Avarintsevin obraz – simvol əlaqələrinə verdiyi tərif bu tərəflər arasında nə qədər sıx əlaqənin, birgəliyin olduğunu göstərir, bir-birinə birləşmiş, həlqələnmiş formada mövcud olan əlaqədən onu ayırmaq və ya dəyişmək mümkün deyil. Digər tərəfdən isə bədii obrazda bütün gedişatların obrazın öz daxilində baş verməsi və birbaşa özü ilə əlaqəli olmasına bağlıdırsa, simvolda işarəvilik ideyanı, mövzunu dəyişə, obraza qədər mövcud mövzunun içərisində yeni mənaların toplanması və təyininə istiqamətlənir. Deməli, obraz simvolun ayrılmaz komponenti (Hegel) və o komponentdə mənanın ifadəsi və ideyanın açılmasıdır. L.Timofeyev yazır: "Simvol həm də hər hansı bir hadisənin səciyyəvi xüsusiyyətlərini, onu müəyyən edən ideyanın ən yüksək ifadəliliklə təcəssüm etdirən bədii obrazıdır" [18, s.140]. Simvol-obraz əlaqələri, simvolun ideya daşıyıcısı olaraq səciyyəvi xüsusiyyətlərini araşdıran Karpenko fikirlərini belə izah edir: "....obraz və simvol ayrılmaz anlayışlardır. Hər dəfə bu iki anlayışı bir-birinə bağlayarkən başa düşməliyik ki, "obraz" anlayışı ümumiyyətlə simvol anlayışından daha genişdir. Simvol həmişə təsvirin xüsusi təzahürüdür, son dərəcə cəmlənmiş və ya "super detallı" əsas funksiyası sadəcə dəyişdirmə və ya təqdimat deyil, "xitam verilmiş" görüntü bəzi obyektlərin dərk edilməsi, həm də onların mahiyyətinin, ideyalarının ifadəsidir" [8]. Simvol obrazda üç əsas tərəfi təzahür etdirməlidir, predmet – məna – ideya. Simvol obrazdır, obrazlılıq simvolun ilkin etapıdır, obrazlılıq gücü olmayan predmet simvol ola bilməz. Obraz yaranmasa, digər obraz kateqoriyalarının yaranması da mümkün deyil. A.F.Losev simvol probleminə fəlsəfi-estetik mövqedən yanaşır, onun spesifikasını başqa anlayışlarla – mif, tip, emblem, alleqoriya, realistik obraz və s. ilə əlaqədə verir və bədii obraz-simvol əlaqələrini əsaslandırarkən simvolu bədii obrazın tərkib hissəsi kimi götürsə də, onunla tam şəkildə eyniləşdirmir [13, s.370]. Simvolu bədii ədəbiyyatda obyekti bildirən, onun mahiyyətini ifadə edən bədii obraz kimi verən P.D.Miniçkin də "Bədii ədəbiyyatda söz simvol kimi" tədqiqatında bədii simvolu "obraz, onun təyin etdiyi predmet-obyekt, obrazın mənası" [15, s.159] olmaq üzrə semantik üçbucaqla üç istiqamətdə şərh edir. Ümumiləşdirmə apararaq bədii obraz kimi simvolun xarakterini, mahiyyətini, bədii süjet daxilində funksiyasını bu şəkildə təsnif etmək mümkündür.

1. Predmetli obrazın olması
2. Görüntüyə gətirilən təsvirin və ya predmetin semantik məzmun və çoxmənalılığı
3. Bənzəyənlə bənzədilən və mənalandırılan arasında məntiqi assosiativ əlaqənin qurulması

Obraz ifadə edəndir, simvol isə bədii obrazda yenidən yaradılan və kəşf olunandır. Simvola qədər obraz müəyyən obyekt üzərində fokuslanır, simvola keçiddə isə artıq sərhədlər götürülür və təsvir əhəmiyyətini itirir, bütün gedişatlar mənanın və mənadan boy verən ideyanın üzərinə istiqamətlənir. A.V.Karpenko "Bədii yaradıcılıqda simvol" məqaləsində yazır: "Simvol əsərin bədii tərəfinin sərhədlərini keçir, bədii obraza artıq öz-özlüyündə baxılmır. Simvol üçün konkret sənət əsərində təsvirin xüsusiyyətləri və incəlikləri əhəmiyyət kəsb etmir, onun üçün hər şeydən əvvəl ifadədə cəmlənmiş məna əhəmiyyətlidir" [9].

A.F.Losev simvol və bədii obrazdan danışarkən onun iki dərəcəsini qeyd edir. Əslində bədii obrazı simvoldan təcriddə götürmür, hər bir obrazda bu və ya digər dərəcədə simvolun olduğunu qeyd edir. Birinci dərəcədə simvol bədii obrazın nüvəsindədir. İkinci dərəcədə isə simvol bədii

obrazın nüvəsindən kənara çıxır. Həm obraz, həm də simvol bu və ya digər dərəcədə, birbaşa və yaxud dolayısı yolla gerçəkliklə, reallıqla sıx şəkildə əlaqəlidir. Onları bundan təcriddə anlamaq mümkün deyil. E.M.Spirova "Obraz və simvol" məqaləsində yazır: "Predmet, əşya, gerçəklik ilə heç olmasa zəif və ya dolayı əlaqəsi olmayan hər hansı obrazı, hətta daha çox simvolu təsəvvür etmək çətindir" [17, s.2]. İstər obraz, istərsə də simvol obyektin, təsvirin spesifik xüsusiyyətlərini seçir. Obrazda bunun üçün qarşıya konkret məqsəd qoyulmur. Lakin simvol seçilənin spesifik xüsusiyyətlərini anlatmaq, açmaq, səciyyələndirmək və s. məqamlara diqqət yönəldir. Simvol üçün təsvir, görüntü ilkin başlanğıcdır. O, obrazın nüvəsində yaranır və tez bir zamanda da ondan ayrıla, tamamən başqa istiqamətə yönələ bilir. Bu zaman təsvir, obyekt təqdimatda obraza bağlılığı itirmir, lakin obraz olaraq qalmır. Obraz mükəmməl təqdim olunmasa, simvol yarana bilməz. Obraz üzdə olan, simvol isə gizli tərəfdir. Bəs obraz və simvol arasındakı əlaqəni necə təyin etmək və ya fərqləndirmək mümkündür? Qeyd olunur ki, "psixoloji nöqteyi-nəzərdən simvol obrazdan az fərqlənir". Bədii obraz simvoldan fərqli olaraq daha tez anlaşılan, görünən və dərk olunandır. "Obrazın hər zaman müəllifi olur. Əsas simvollar anonim xarakter daşıyır, onlar kollektiv şüuraltının məhsuludur. Bu mənada simvollardan yer üzündən keçmiş bütün nəsillərin kristallaşması kimi danışmaq olar" [17, s.3].

Obrazla simvol arasında ortaq xüsusiyyət onların hər ikisinin obyekt, əşya, gerçəkliklə sıx bağlılığı, əlaqəsinin olmasıdır. Obraz simvola çevrilə bilər. Bunun üçün obrazın qarşısında müəyyən tələblər var. Obrazın süjet daxilində süjetləşməsi, assosiativlik, məntiqi assosiasiya, dərin metaforiklik, obrazda ümumiləşdirmə, dərin ideya və s. Obrazın simvola çevrilməsi üçün qoyulan tələblər simvolun obraza çevrilməsində gərəkli deyil. Çünki obyekt, əşya, predmet simvola qədər obrazlaşır, simvolun ən başlanğıc etapı obrazlılıqdır, obraz olmasa, simvoldan danışmaq olmaz. E.M.Spirova yazır: "Obrazın həmişə simvol olmaq şansı var. Belə olan halda müəyyən ümumbəşəri məzmun, metafizik dərinlik, dərin dialoq və ünsiyyət tələbi yaranır. Simvollar dövrə uyğun olaraq qalır. Onlar öz zamanlarından kənar yeni məna və yeni səs qəbul edə bilirlər. Bu orta əsrlərdə qədim simvollarda baş verdi. Onlar yenidən təfsir edildi, yenidən düşünüldü. Obraza gəlincə, o ilkin görkəmini saxlayır və sonrakı dövrlərdə fərqli aranjman alır, ondan yeni məzmun çıxarılır" [17, s.3].

Deməli, obrazı simvoldan fərqləndirən xüsusiyyətlərdən biri onun müəllifinin olması və obrazlılığın konkret obraza istiqamətlənməsidir. Simvolda isə müəllif tərəfindən yaradılan, təsvirə gətirilən qeyri-ixtiyari və ya ixtiyari olaraq əsas obyektdən uzaqlaşdırıla, bəzən obyektlə heç bir əlaqəsi olmayan daha dərin mətləblərə istiqamətlənə bilər. Obraz təsvir və yaxud obyektin üzərində fokuslanır, onun hərtərəfli, bədii vüsətlə açılması məqsəddir, amma simvol üçün bu, kifayət deyil. Bədii obrazda görünən, hər kəsə bəlli olan gerçək tərəf simvolda görünməyən və gerçək olandan daha qabarıq, gerçək olan tərəfdir. "...simge", "imge"nin sembolü haline gelmeden önce en çok bilinen anlamı ile insanın karşısına çıkmakta, ona sonradan yüklenen ikinci anlam ilk gerçek anlamın yanında yer almakta bazen önüne geçmektedir. İnsanlar, ikinci anlamı yani sembolü diğer bilgi ve birikimleriyle harmanlayıp en sonunda kendi dünya görüşlerini oluşturmaktadırlar" [6, s.28]. Bədii obrazda bütün fikir, diqqət konkret obrazın özünə istiqamətlənir və təqdiminə yönəlir, öz ətrafında düşünməyi tələb edir. Simvolda ideya zənginliyi, məna obrazın sərhədlərini genişləndirir və istiqaməti seçilmiş, fonda olan konkret obrazdan uzaqlaşdırır. Bədii obraz hər bir vasitədən qoparılmış parçalardan yaranmış bütövdür. Şəxsləndirmə, bənzətmə, metaforikləşmə, incə simvolik keçidlər onun yaranmasında əsas şərtlərdən biri kimi labüddür, bu keçidlər onu simvola çevirə də, çevirməyə də bilər. Filosof A.Losev yazır: "....Təmiz bədii obraz digər şeylərdən bir parça götürülmüş öz-özünü yaradır, özü üçün bir model sayılır. Həmçinin onda ümumi ideya, yeganə hissiyyat əlamətləri var və bu özündə sonluğu və ya sonsuz məna yeganəliyi yaradır" [14, s.194].

*İlk baharda narın qarı*
*Dəlib keçər bənövşələr*
*İnci kimi damlaları,*
*Bir-bir içər bənövşələr.*

*Ürək ondan necə doya,*
*Dözməz yaza, qalmaz yaya,*
*Vaxtlı gəlib bu dünyaya,*
*Vaxtsız köçər bənövşələr* [5, s.35].

Simvol isə bədii obrazdan fərqli olaraq diqqəti obyektdə olan əşyanın təqdiminə yox, onun içərisində, zəruri olan müəyyən bir əlamətinin fonunda fikri yeni ideyaya, fəlsəfi aspektlərə yönəldir. Bu zaman obyekt subyektlə əvəzlənir. Bədii obraz obrazlılığın ilk və ən zəruri etapıdır, simvol isə bədii obrazlılığın ən yüksək mərhələsidir. Digər poetik kateqoriyalar bədii obrazdan sonra yaranır, amma bədii obrazdan fərqli olaraq bədii obrazın nüvəsində mövcud olan poetik funksiya daşıyıcısı olan elementlərin hər birinin ümumiləşməsi simvolu meydana çıxarır.

Obraz diqqəti öz üzərində cəmləməyə meyillidir, simvol isə başqadır. Simvol istər müəyyən əşya və yaxud anlayış, hadisə olsun, onda başqa bir məzmunun, ideyanın açılmasına xidmət edir, burada nəzərdə tutulan obraz və yaxud obrazlaşdırılan element yalnız bir əlaməti ilə deyil, bütöv məzmunu ilə diqqət mərkəzinə gətirilir.

Simvolik obrazlılıqda bədii süjetə, təhkiyəyə daxil olan bütün dil komponentləri konkret obrazın arxasında gizlənən məqsəd və ideyanın ümumiləşdirilməsinə xidmət göstərir. Simvol xüsusiyyəti qazanmış obrazla bağlı adi bir təsviri lövhə də öz çərçivəsindən kənara çıxır, obrazın həqiqi mənasına yox, onun mahiyyətindəki ideyanın açılmasına yönəlir. Bu cəhətlərinə görə simvolun çoxmənalılığını adi bədii obrazın çoxmənalılığından fərqləndirən tədqiqatçı A.Auer yazır: “.....simvol öz konkret mənasından aşaraq sərhəddən kənara çıxır, bir-birinin ardınca paralellər və assosiasiyalar yaradan enerji ilə dolur. Paralellər və assosiasiyalar “ailəsi” artaraq daha dərin və geniş təsvirilik əldə edir” [4, s.210].

Obraz özü özünə də müəyyənləşə, təsdiqlənə və ölçüsünə uyğun olaraq bədii funksiya daşıyıcısına çevrilə bilər. Lakin “obrazdan fərqli olaraq, simvol öz-özünə kifayət etmir və onun denotasiyasına, mövzusuna xidmət edir, təkcə təcrübə deyil, həm də nüfuz və şərh tələb edir” [16]. Simvolun yaradılmasında predmet, əşya müəyyən mərhələlərdən keçməlidir. Yəni, simvolun yaranması üçün bədii obrazın olması zəruridir.

Bir çox təbiət təzahür və predmetləri simvolik məzmun daşıyan ilkin obrazların dinamikliyi bir tərəfdən müəllifin həyata baxışı, milli kulturoloji yaddaş, ənənəyə bağlılıq ilə sıx şəkildə əlaqəlidirsə, digər tərəfdən dövr və zamanla bağlı düşüncələri və yaşantıların ifadəsi üçün aktiv simvolik vahidlərdir. Dağ, ağac, qaya, daş, bulud, külək, duman, bulaq və s. müəyyən simvolik tutuma malik olan aktiv obrazlardır. Bu obraz-simvollar insanın ətraf aləmlə əlaqələrinin ilk ünsiyyət nişanı kimi mifoloji, arxetipik məzmun, alleqorik obraz kimi aktivdirsə, digər bir məqamda şairin zamanla, dövrlə, ictimai mühitlə əlaqəli görüşlərinin əsas qaynağıdır. Deməli, obraz-simvol hər biri mədəniyyətin, yaddaşın dərin qatlarından keçərək semantik məzmun baxımından yenilənir, bu yenilənmə zamanı simvol yenidən yaranır, amma tamamilə fərqli düşüncə və zaman kontekstində təzələnir, ideya-məzmun xüsusiyyəti kəsb edir. Qabilin “Adsız bulaqlar” şeirində adsız bulaqlar bədii obrazdır. Şairin düşüncəsinə transfer olunan bulaq ilk növbədə bədii obraz olaraq öz statusunda çıxış edir. Lakin birdən-birə obraz ətrafında yaranan düşüncələr, tanınmış bulaqlarla yanaşı tanınmayan, “qalın-qalın meşələrin dərinliyində, xəzəl altda dustaq olan bulaqlar”, “sıldırımlı quzeylərin sərinliyində, tənhalıqdan doluxsunan”, “nə adı, nə sanı, nə də ünvanı olan”, “qışda qara qarışan”, “yoluna bir cığır belə düşməyən”, “bir qurtum, bir ovuc dadanı

olmayan bulaqlar” süjetin sərhədlərini qırır, daha geniş mətləblərin açılıb ümumiləşməsinə imkan yaradır.

*Şan-şöhrətli bulaqlarla dursa yanaşı,*
*Sərinlikdə, şirinlikdə kölgədə qoyar.*
*Şəfa verər min xəstəyə, əridər daşı.*
*Tanınmayan, bilinməyən adsız bulaqlar* [11, s.14].

Şeirdə “adsız bulaqlar” simvollaşır, bədii obrazdan simvola keçid funksiyasında bir tərəfdən milli-mənəvi yaddaşa biganə münasibətin düşüncə və yaddaş kontekstində və digər tərəfdən isə podtekstdə daha dərin ictimai mətləblərin fəlsəfi çözümünə yönəlir. Eyni məqama şairin “Yay tonqalı” şeirində də rast gələ bilərik. Süjetin yaranmasında ilk məqam müəyyən təsvirin zəruriliyidir. Təsvirə yanaşma, onu görüm və dəyərləndirmə mətn boyu dəyişə və dəyişməyə də bilər. Bu o qədər də vacib deyil. Təbii ki, burada ən zəruri məqam müəllifin süjetə çevirdiyi təfərrüatlara münasibətin bədii-estetik imkanlarını şərtləndirməkdir. Şeirdə dalğın dəniz, tutqun səma təsvir olunur, sərin havada Xəzərin sahilində yay tonqalı qalayan uşaqlar əllərinə keçən nə varsa, oda atırlar. Quru yeşik qırıntıları ilə yanaşı yaş taxtalara kibrit çəkib yandırmağa çalışsalar da, quru yanır, yaş taxtalar yanmır. Bu mənzərə şüjetin inkişafında, şairin məqsəd və məramının üzə çıxmasında əsas rol oynayır. Fikri-hissi assosiasiyadan məntiqi assosiasiyaya keçid fikrin hüdudlarını genişləndirir, süjetin komponentləri arasında yeni bağların yaranmasına gətirib çıxarır.

*Od içində üsyan qopur, odlu üsyan...*
*Daş qovrulur, dəmir yanır, qarsıyır qum.*
*Niyə zorla alışsın ki..... alışmayan,*
*Dəniz niyə gennən baxıb etmir hücum?*

*Necə yanır gör, qurunun oduna yaş,*
*Neçə tale, neçə qismət düşür yada.*
*Necə yanır gör qurunun oduna yaş,*
*Əvvəli yox, axırı yox bu dünyada* [11, s.104].

## Nəticə / *Conclusion*

Deməli, simvol obraz tipində süjetin inkişafını istiqamətləndirən, dəyişən və formalaşdıran əsas aparıcı komponentlərdən biridir. Bədii mətndə simvol obrazdır. Süjetin inkişafında “məcazlar ailəsi”nin bir araya gəlməsi, şaxələnmiş mətnin dinamik inkişafında konkret ideyanın ümumiləşməsi yönümündə obraz simvola çevrilir. Obraz poetik kateqoriyaların iştirakı olmadan simvola çevrilə bilməz. Bədii süjetdə simvolun yeri və mövqeyi, yaranma prosesi üç yönümdə - predmetli, təsviri, təbiət təzahürləri və s. olan obrazın olması, obyektdə olan təsvirin semantik məna və çoxmənalılığı, bənzədilənlə bənzəyən arasında ortaq vəhdətin olması. Süjetin formalaşmasında obraz müxtəlif poetik kateqoriyaların iştirakı ilə müəyyənləşir və ideyanın açılmasına təkan verir. Deməli, simvol mətnə daxil edilən, fikrin inkişafına təkan verən poetik kateqoriyaların ümumiləşmiş tipidir. Onların iştirakı olmadan simvol yarana bilməz. Simvol onların funksiyalarını ümumiləşdirir, obrazı müəyyən bir ideyanın gerçəkləşməsinə yönəldir.

Hər bir mətn müəyyən bir mövzu, ideya üzərində qurulur. İdeyanın gerçəkləşməsi prosesində isə ayrı-ayrı mətn komponentlərinin bir araya gətirilməsi, bədii mətnin qurulması, təşkili və inkişafı, ümumiləşdirilməsi prosesində ayrı-ayrı komponentlərin funksionallığı istiqamətində inkişaf etdirilir. Simvolun əsas xüsusiyyətlərindən biri ideya daşıyıcısı olmasıdır. İdeyasız mətn yoxdur,

lakin hər bir ideyası olan mətn də simvolik deyil. Deməli, simvol ideyanın kiçik, öz çıxışında isə əsas komponentlərindən biridir. Müəllifin bənzətdiyi məfhumlar və ya obyektlər arasında uyarlıq olmalıdır. Bu mütləqdir. Simvol mövqeyində çıxış edən bədii mətnin simvol mövqeyi müəllifə də bəlli deyil. Müəllif bir mətləb və ya müəyyən təsvirə gətirilən məqamın təqdimində hansı proseslərdən keçəcəyini, nəyin onun yanaşmasında əsas və ya zəruri olub-olmayacağını əvvəlcədən bilmək iqtidarında deyil. Bu bədii süjetin tələbatından irəli gələrək inkişaf etdirilir. Ən adi detal da bədii mətndə geniş mətləblərin ifadəsinə yönələ bilər. Burada hər bir şey müəllifin müəyyən obyektə, predmetə və ya təsvirə verdiyi poetik mənadan asılıdır.

Bədii obraz qismində çıxış edən simvol bədii mətnin dinamik inkişafı, dil komponentlərinin bir araya gətirilərək ideyanın gerçəkləşməsi prosesində də əsas rol oynayır. Çoxşaxəli və mürəkkəb funksiyaya malik olan simvol bədii mətnin qurulması, fikir və düşüncənin, müəllifin məqsəd və məramının açılmasında, süjetin formalaşmasında əhəmiyyətli mövqeyə malikdir.

**Ədəbiyyat / *References***


1. Аверинцев С.С. Собрание сочинений. София – Логос. Словарь., Под ред. Н.П. Аверинцевой и К.Б.Сигова. Киев: Дух и Литера. 2006 https://biblio.imli.ru/images/abook/zarublitra/Averintcev_S._S._Sofiya-Logos._Slovar._2006.pdf
2. Аверинцев С.С. София-Логос. Словарь. 2-е, испр. изд. – К.: Дух і Літера, – 2001.
3. Арутюнова Н.Д. Образ, метафора, символ в контексте жизни и культуры. Res PHİLOLOGİCA: – Москва, Ленинград: Наука, – 1990.
4. Ауер, А. Симвоп. Литературная учеба. – 1983, №5.
5. Bənövşə çələngi. Almanax. – Bakı: Adiloğlu, – 2007.
6. Dağgeçen, Ö. Siyasal Simgelerin Siyasal Kültür ve Toplum Üzerine Etkileri (Mersin Örneği), Süleyman Demirel Üniversitesi Sosyal Bilimler Enstitüsü, Sosyoloji Anabilim Dalı Basılmamış Yüksek Lisans Tezi, – Isparta: – 2011.
7. Hüseyn Sarac. Edebiyatın içten incelenmesinde imaj, metafor, sembol ve mit unsurları. https://www.dergizan.com/2016/07/23/edebiyatin-icten-incelenmesinde-imaj-metafor-sembol-ve-mit-unsurlari-huseyin-sarac/
8. Карпенко, А.В. Символ, знак, образ. 2002. http://dspace.nbuv.gov.ua/xmlui/bitstream/handle/123456789/75678/38-Karpenko.pdf?sequence=1
9. Карпенко, А.В. Символ в художественном творчестве. http://dspace.nbuv.gov.ua/bitstream/handle/123456789/74181/73-Karpenko.pdf?sequence=1.tmp
10. Квятковский, А. Поэтический словарь. Москва, «Советская энциклопедия», 1966
11. Qabil. Təmizlik. Şeirlər və poemalar. Bakı: Yazıçı, 1983
12. Литературная энциклопедия терминов и понятий. Москва, НПК. «Интелвак», 2001 https://biblio.imli.ru/images/abook/teoriya/Literaturnaya_entciklopediya_terminov_i_ponyatij._2001.pdf
13. Лосев, А.Ф. Проблема символа и реалистическое искусство. – Москва: Искусство, – 1976.
14. Лосев, А.Ф. Проблема символа и реалистическое искусство. – М.: Искусство, — 1995.
15. Миничкин, П.Д. Слово как символ в художественной литературе. Oriental Studies. 2017;10(4) https://kigiran.elpub.ru/jour/article/view/492/1731

16. Символ. Новая философская энциклопедия: 4 т. / Ин-т. Философии РАН; Нац.общество. – науч.фонд; Предс.научно-ред. Совета В.С.Степин. – М.: Мысль, 2000-2001. https://iphras.ru/page12557492.htm
17. Спирова, Э.М. Символ и образ. Журнальный клуб Интелрос. «Вестник Российского Философского общества» №3, – 2011.
18. Тимофеева, Л.И и Н.Венгров. Краткий словарь литературоведческих терминов. – Москва: – 1963.

## Художественный образ и символ в эволюции поэтической мысли

**Гюнай Гараева**
Доктор философии по филологии, доцент
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail:gunaygarayeva@gmail.com

**Резюме**. В статье исследуются отношения художественного образа и символа, являющиеся одной из сложных теоретических проблем литературоведения. В ходе исследования символ рассматривается как ядро художественного образа, как элемент его структуры. Отмечается, что начальной стадией возникновения символа является существование художественного образа. Художественный образ фокусируется на определённом объекте до тех пор, пока не превратится в символ, при этом существующие границы разрушаются, описательность теряет значимость, а все события текста направляются на раскрытие смысла, новой идеи.

Основой возникновения символа является совершенствование художественного образа. Символ – это обобщённый тип поэтической категории. Без их участия невозможно создать символ, однако символ, объединяя «семью метафор», обобщает их функции, а символизируемый образ создаёт основу для реализации определённой идеи.

В ходе исследования, опираясь на теоретические взгляды А.Ф. Лосева, С.С.Аверинцева, А.Квятковского, Л.Тимофеева, А.Ауэра, П.Д.Миничкина, А.В.Карпенко, Э.М.Спировой и других, были исследованы отношения художественного образа и символа их сходства и различия на примерах художественных произведений.

**Ключевые слова**: художественный образ, символ, поэтическая категория, предмет, смысл, идея